# MƏHZ BU KİTAB HAQQINDA

**Mən Sahib Əliyevin yaradıcılığı haqqında iki dəfə yazmışam. Üçüncü dəfə yazmağa isə məni, əslində, Əlizadə Əhmədlinin Sahib Əliyevin sosial şəbəkədə getmiş şeirlərinə yazdığı rəy vadar etdi.Vadar etdi deyəndə, Sahib Əliyevin yaradıcılığına olan marağımı yenidən tərpətdi. Həmin rəydə Sahibə müraciətlə deyilir: " Siz, doğrudan da, heç kimə bənzəmirsiniz, yaradıcılığınızda heç kimi təqlid etmirsiniz. Ancaq özünüzsünüz və elə özünüz olduğunuza görə də şeirləriniz diqqəti cəlb edir".**

Sahib Əliyevin yaradıcılığını bir daha nəzərdən keçirəndə, gördüm ki, Ə.Əhmədlinin bu fikirlərində dərin bir həqiqət var. Bəli, Sahib həqiqətən, bənzərsiz şairdir. Elə bu bənzərsizliyinə görə də o, oxucular tərəfindən həmişə sevilir.

Sahibin indiyə kimi iyirmi üç kitabı, o cümlədən, üç cildlik seçilmiş əsərləri çıxmış və həmin kitabların demək olar ki, hamısı əldən-ələ gəzmiş, maraqla oxunmuş, müəllifinə dərin hörmət qazandırmışdır.

### *Bu hörmətin nəticəsidir ki,*

ayrı-ayrı oxucular və ədəbi-tənqidlə məşğul olan bir çox mütəxəssislər tərəfindən onun haqqında çoxlu məqalələr yazılmış, həyat və yaradıcılığına dörd kitab həsr edilmişdir. Bunu nəzərə alaraq, mən öz yazımda şairin bütün yaradıcılığı haqqında deyil, yalnız "Dünyanın dərdidi mənim dərdlərim" adlanan bu yeni şeirlər toplusundan söz açmaq istəyirəm. "Gənclik" nəşriyyatı tərəfindən buraxılan bu kitab yeddi bölmədən ibarətdir. Öz yaradıcılıq ənənəsinə sadiq qalan şair "Vətən, dünya, doğma yer" adlı birinci bölmədə yenə də üstündə gəzdiyimiz torpaqdan, bizi qoynunda bəsləyən dünyadan və dünyanın içində özünə yer almış Vətəndən bəhs edir. Şeirlərdən aydın olur ki, Vətən və onun ucsuz-bucaqsız torpağı şair üçün hər şeydən əzizdir. Şair Vətəni bütün varlığı ilə sevir və bu sevgi ilə də nəfəs alır:

**Sənə Vətən dedim ağlım kəsəndən,**
**Saldım ürəyimə səni birinci.**
**Sənə bağlılığım artırdı mənim**
**Sinəmdə dil açan hər bir sevinci.**

Əslinə qalanda, Vətən, torpaq, dünya mövzusu təzə mövzu deyil. Dahi Nizamidən tutmuş müasir şairlərə qədər hamı bu mövzudan istifadə etmiş və yenə də edir. Lakin Sahibin şeirləri həmin mövzuda yazılmış heç bir şeiri təkrar etmir. Bu şeirlərin hər birində Sahibin özünəməxsus ifadələri və poetik fikirləri var. Yuxarıda misal gətirdiyimiz şeir bunu bir daha sübut edir. Həmin şeiri oxuyanda elə bilirsən ki, bu, mahir bir bəstəkar tərəfindən nota köçürülmüş gözəl bir nəğmədir.

"Görəsən, haradan başlayır Vətən", "Canımız, gözümüz, ey Azərbaycan", "Bakı, sənə tay hanı", "Bu torpağın yolunda" və bir sıra başqa şeirlər də eynən belədir. Yəni öz poetikliyi ilə oxucuya həzz verir.

Ümumiyyətlə, Sahib Əliyev vətənpərvər şairdir. Bir daha təkrar edirəm, o, Vətənin dağını da sevir, dərəsini də; çayı ilə də qırrələnir, dənizi ilə də; lap yamyaşıl meşələri ilə də. Vətənin yalından da ilham alır, yamacından da. Bu fikir şairin "Bu sevgi gen düşsə ürəyimizdən" şeirində çox gözəl ifadə edilmişdir:

**Sevirik çayları, dərələri də,**
**Çölə də hörmətlə yanaşırıq biz.**
**Sevgimiz üzülsə ürəyimizdən,**
**Quruyar ömrümüz, solar ömrümüz.**

Şairin vətənpərvərlik hissi onun "Mən Vətənin nəyiyəm" şeirində də ustalıqla verilmişdir:

**Mən ağacam,**
**o, torpaq,**
**o, budaqdı, mən yarpaq.**
**Arxasında duracaq**
**qalasıyam Vətənin.**

Vətəni bu səviyyədə sevən heç kəs, şübhəsiz, onun dərd-sərinə də biganə qala bilməz, necə ki, Sahib Əliyev də qala bilmir, daim Vətənin ağrı-acısını çəkir, dərd-sərini öz şəxsi dərd-sərindən üstün tutur.

Elə buna görədir ki, bir sıra şeirlərində o, Vətənimizin Şimal və Cənuba bölünməsindən ürək ağrısı ilə danışır, Vətən torpağının qərbə və ya şimala "pay verilməsini" də heç cür qəbul edə bilmir. Bu məqsədlə də ürəyinin ağrılarını şeirə tökür. Belə şeirlərdə həzin bir sızıltı var. Şair daim yanır, qovrulur. Lakin dünya güclərinin zəhmindən çəkinib, hələlik aciz qaldığımızı da qabardır, nəzərə çarpdırır:

**Nə cürətimiz çatır**
**ayrılmış torpaqları**
**birləşdirə biləк.**
**Nə də ki, içimizdə**
**sakit otura bilir**
**dərd tavasında**
**yanıb,**
**qovrulan ürək.**

Eyni dərdi biz "Xan Arazı güldürməkçin", "Qəribə insanlarıq biz", "Şuşa dərdi", "Qarabağ düşmənə təslim olan gün", "Bizim qərib dağlar da var" şeirlərində də görə bilirik.

Birinci bölmədə şairin dünya haqqında yazdığı şeirləri də xüsusi yer tutur. Belə şeirlərində o, bir tərəfdən dünyanı tərifləyir, onun bizim üçün doğma ana kimi əziz olduğunu nəzərə çarpdırır, digər tərəfdən isə onun bəzi nakəndəm işlərini görüb, təəssüflənir, bəzən onu tənqid etməyə məcbur olur.

Lakin şair bir həqiqəti əsas götürüb, bildirir ki, dünyanın yaxşı və ya pis olması, əslində, onun qucağında yaşayan insanların hərəkətlərindən asılıdır. Axı, bu, bir həqiqətdir ki, dünya, həyat insanların əlilə gözəlləşir, inkişaf edir. Bəzi insanların xəbisliyi isə dünyanın gedişinə mənfi təsir göstərir, onu cılddən-cildə salır.

Bütün bunları nəzərə alan şair kitabının "Eyni cür olmayır bütün adamlar" adlanan ikinci bölməsində məhz bu ruhda yazılmış şeirlərini toplamışdır. Burada bir şeyi yaddan çıxarmaq lazım deyil ki, ümumiyyətlə, insan amili Sahib Əliyev üçün hər şeydən üstündür.

### *Şairə görə,*

Tanrı dünyanı yaradandan sonra onun idarə olunmasını məhz insanlara tapşırmışdır. Əslində, şair tamamilə düz deyir. Lakin şairə görə, həyatda insanlar eyni cür olmayırlar - yaxşıları da var, pisləri də. Yaxşılar ona görə yaxşıdırlar ki, dünyada olan hər şeyə, yeni torpağa da, daşa da, gülə də, çiçəyə də yüksək qayğı ilə yanaşır, gərəkli işlər görməklə dünyanın başını uca edirlər. Bunu "Dünyanı ürəkdən sevən adamlar" şerindən daha aydın görmək olur:

**Dünyaya gəlmişik qanad açmağa -**
**Uçaq səmalarda bir qartal kimi.**
**Ya da ki, bu dünya sədəfli sazdı,**
**Biz isə bu sazın üstündə simi.**

Dəqiq fikirləşəndə görürsən ki, dünyanı ürəkdən sevən adamlar həqiqətən mərd, cəsur, qayğıkeş olur, daim xarüqələr yaratmağa can atırlar, çalışırlar ki, həyatda ancaq yaxşı əməllərlə məşğul olsunlar. Ona görə ki, yaxşı əməl həm həyatın özünü saflaşdırır, həm də insanları bir-birlərinə yaxınlaşdırır və sevdirir. Elə buna görə də şair öz kitabında yaxşı işin tərifinə xüsusi yer ayırır. Deyir:

**Yaxşılıq mənimçin - yaxşı adamlıq,**
**Yaxşılıq itsə, dost, bitər nadanlıq.**
**Yaxşılıq - işıqdı, pislik - qaranlıq,**
**Pisliyi çeynəyir, didirəm indi.**

Şair yaxşı adamları elə bil əlində çıraq tutub axtarır və onların yaxşı əməllərini başqalarına təqlid edir. Bu, "Mərd olan yerdə", "O adam da bildi", "Gəl gedək insanlar gur olan yerə" və bir sıra başqa şeirlərdə daha aydın görünür. Elə götürək "O, adam da bildi" şeirini. Şeirin təhlili çox vaxt apara bildiyinə görə, istəyirəm, onu elə olduğu kimi təqdim edim:

**Birinin pulu itmişdi,**
**tapdım onu.**
**Bilirsiz, nədən bildim**
**bu pulun**
**kimin olduğunu?**

Lakin, aydın bir həqiqətdir ki, həyatda bütün adamlar belə düşünmürlər. Bu səbəbdən insanlar iki yerə bölünürlər. Açıq görürsən ki, həyatda yaxşı adamlarla yanaşı, pis, əyri adamlar da çoxdur. Belə adamlar yaxşı yaşamağımıza mane olur, dünyanı öz çirkin əməllərilə ləkələməyə çalışırlar. Belə olanda, dünya, həyat adamın gözündən düşür, insanlar pessivizmə qapanırlar. Bu cür adamlar şairin "İnsanı çox zaman tanımaq olmur", "Sonradan əyilir əyilən insan", "Eyni cür olmayır bütün adamlar", "Barışa bilmirəm belə adamla" şeirlərində haqlı olaraq qınaq obyektinə çevrilmişlər. Şair özünün "Əməllə ölçülür ömür", "Dəyişmə xasiyyətini", "Əgər sən insansansa" və başqa şeirlərində üzünü bütün insanlara tütüb, deyir:

**Yıxılana dayaq olmalısan -**
**tutmalısan qolundan.**
**Ərkin çatan heç kəsi**
**qoymamalısan**
**çıxsın Allah yolundan.**

Kitabın üçüncü bölməsinə qoyulan ad isə belədir: "Belə demək mümkünsə əgər". Bu adla şair nə demək istəyir? Bunu bölmədə gedən şeirlər aydın göstərir. Həmin şeirlərin hər biri özü-özlüyündə dərin bir fəlsəfi fikir ifadə edir. Şairə görə, ola bilsin ki,bu fəlsəfəni başa düşə bilməyənlər də tapılsın. Məsələn, biri durub deyə bilər ki, bu fikir elə yox, belədir.Həmin söz-söhbətin yolunu kəsmək üçün şair qoyduğu adla oxucuya demək istəyir ki, mən isə bu tərzdə demək istəyirəm: Əgər belə demək mümkünsə...

Bu şeirlərdən şairin nəyi nəyə bənzətməyi, nəyin nədən sonra gəldiyini yaxşı bilməsi və bildiyini yaxşı ifadə edə bilmək bacarığı diqqəti cəlb edir. Nəticədə, həmin şeirlərdəki fikirlər oxucuya xüsusi təsir bağışlayır. Ən yaxşı cəhət odur ki, Sahibin bu qəbildən olan şeirlərindəki mövzu tamailə yenidir, ədəbiyyatda, demək olar ki, işlənməmişdir. Bunu, bir növ, mövzu yeniliyi kimi də qiymətləndirmək olar. Bu cəhətdən, "İnsan da maşın kimidir", "Oxşarlıq", "Yer üçün doğulanlar", "Körpü", "Bu dünyanın cənnəti metro", "Qəribə bir fikrim var", "Bəxtəvər heykəlin başına", "Sadə, qısa bir sual" və bir sıra başqa şeirlər daha çox maraq doğurur. "İnsan da maşın kimidir" şeirində deyilir:

**Maşın təzə olanda**
**mator yağ kimi işləyir.**
**Elə ki, köhnəldi,**
**görürsən,**
**hər addımda yağ yeyir.**
**Boltlar boşalır,**
**taq-tıqlar çoxalır,**
**sürət də ki, azalır o, maşında...**




"Oxşarlıq" şeiri də eynən. Bu şeirdə şair payızda saralıb torpaq üstə tökülən yarpaqların taleyi ilə, insanın qocalandan sonrakı ömrü ilə gör necə maraqlı müqayisə aparır, onların ömürlərini, bir növ, eyniləşdirir. Aydındır ki, belə bir eyniləşdirmə, ədəbiyyatşünasların diqqətini cəlb etməyə bilməzdi. Onlar bu cür şeirləri diqqətlə nəzərdən keçirir, onları ədəbiyyatımızın nailiyyəti kimi qiymətləndirirlər.

Sahib Əliyev bu qəbildən olan şeirlərində çalışır ki, oxucu bir qədər baş işlətsin. Yəni deyilmiş fikri təhlil etmək üçün düşünsün və düşünə-düşünə də həyatın bəzi sirlərini öyrənə bilsinlər - lap elə "Sadə, qısa bir sual" şeirində olduğu kimi:

**Bir sual verim sənə -**
**sadə, qısa bir sual.**
**Cavabını bilməsən,**
**otur bir az fikrə dal.**

Məncə, təhlilə ehtiyac yoxdur. Çünki bu şeiri oxuyan hər bir oxucu onun cavabını tapmaq üçün hökmən fikirləşəcək və cavabı tapandan sonra istər-istəməz, öz biliyini artıracaqdır.

### *Ədəbiyyatşünaslar*

Sahib Əliyevin Böyük Yaradan haqqında yazdığı şeirlərə də həssaslığla yanaşırlar.

Xüsusilə, şairin öz-özünə Allahla ünsiyyətə girməsi, Onunla ərkyanə danışması mütəxəssisləri təəccübləndirir, bu məsələyə aid bir-birindən maraqlı məqalələr yazmalı olurlar. Filoloq Yavər Qənizadənin "Yaradana sevginin poeziyası" məqaləsi bu cəhətdən, xüsusilə, maraqlıdır. Y.Qənizadə bu qeyri-adi mövzuda yazılmış şeirləri təhlil edərək deyir:

"Adi adamlar Allaha olan sevgilərini bir o qədər də biruzə verə bilmirlər. Şairlər isə belələrindən fərqli olaraq, bunu istənilən kimi bacarırlar. Bu cəhətdən Sahib Əliyevin poeziyası daha çox maraq doğurur. Həmin marağı nəzərə çapdırmaq üçün onun təkcə "Mən niyə Allahdan qorxum ki, qardaş" şeirini yada salmaq kifayətdir.

Düzdür, şeirin sərlövhəsini oxuyanda adama birtəhər gəlir: "Necə yəni, mən niyə Allahdan qorxum ki, qardaş? Məgər Allhdan böyük bir varlıq var? Məgər Allah sənə istədiyi vaxt zərbə vura bilməz? Bu halda, sən niyə ondan qorxmayasan ki? Lakin şeiri tam oxuyandan sonra görürsən, burada məsələ başqa cür qoyulmuşdur: Bu bölməni nəzərdən keçirəndə "Əməl pis olanda" şeiri də diqqətdən yayınmır. Həmin şeirdə şair Allahın qoyduğu, qayda-qanuna tabe olmayıb, ömrünü xəbis əməllərlə keçirən, ölüm ayağında isə tövbə edərək, Allahdan onun günahlarını bağışlamaq istəməsindən bəhs edilir. Şair oxucuya sual verir: "Bu cür hərəkət doğrudurmu? Allah onun bu qədər günahlarını bağışlarmı?". Sonra öz sualına özü də cavab verir. Deyir ki, xeyir! Birincisi, günahı gərək vaxtında dərk edə biləsən. Elə tövbə də bu zaman olmalıdır. Bu şərtlə ki, tövbədən sonrakı əməllərinlə əvvəlki bəd əməllərinin əvəzini çıxasan. Yoxsa, böyük cinayətə yol verib, öləndə üzünü Allaha tutub yalvarasan ki, keç günahımdan! Allah keçərmi? Əlbəttə ki, yox.

Bu yerdə şair üzünü insanlara tutub qətiyyətlə deyir:

**Allah bu dünyaya gətirir bizi,**
**Yaxşı əməllərlə məşğul olaq biz.**
**Əməl pis olanda, kara gəlməyir,**
**Öləndə edilən tövbələrimiz.**

### *Kitabda*

"Məni eşq qoruyur, sevgi saxlayır" bölməsi dördüncü yerdə gedir. Bunu deyim ki, məhəbbət və sevgi də yeni mövzu deyil. Ona görə də həmin mövzuda yeni fikir və ya yeni söz demək bir qədər çətindir. Lakin Sahib Əliyevin şeirlərini oxuyanda aydın olur ki, həmin mövzuda elə bu gün də orijinal fikir söyləmək olur. Necə ki, Sahib özü deyə bilir. Sahibin yazdığı sevgi şeirlərinin əksəriyyətini yeni fikirlər və ya yeni deyimlər təşkil edir. Həmin şeirləri oxuyanda görürsən ki, şairin təsvir etdiyi sevgi Günəş kimi parlaq, su kimi şəffaf, çiçək kimi ətirli, həyat kimi əbədidir.

Yeri gəlmişkən, deyim ki, bəzi oxucular həyatı, o cümlədən ədəbiyyatı bir o qədər yaxşı bilmədiklərinə görə, bəzən Sahibə bu yaşda sevgi şeirləri yazmağı qüsur hesab edirlər. Sahib Əliyev isə bu fikirə qəti etiraz edir. Deyir ki, sevgi-məhəbbət insanın içində daim yaşamalı, damarda qan kimi dövr etməlidir. Təsadüfü deyil ki, ədəbiyyatımızın günəşi hesab olunan böyük Nizami deyirdi:

**Məhvəri eşqdir uca göylərin,**
**Eşqsis, ey dünya, nədir dəyərin?**
**Eşqsiz bir ürək bir neydir qırıq,**
**Yüz canı olsa da, ölüdür artıq.**

Bu məsələdən danışan şair ona irad tutanlara deyir:

**Sən mənə sevməyi irad tutma gəl,**
**Demə ki, yaşıma yaraşmayır bu.**
**Dodaq susuzluqdan qarsalananda,**
**Ən çox istədiyi nə olur, de? Su!**

Fikri başqa tərəfə yönəltsək, bunu da demək lazımdır ki, şair öz şəxsi sevgisi ilə yanaşı, başqa insanların sevgisini tərənnüm etməyə borcludur. Necə? Təsəvvür edək ki, hər bir şeir, ayrıca götürüləndə, müstəqil bir əsərdir. Hər əsərin də ayrıca bir qəhrəmanı var. Bəzən şeirin qəhrəmanı "mən" olur. Ədəbiyyatşünaslıqda buna "lirik mən" deyirlər. Deməli, şair "mən" deyəndə orada öz adından yox, lirik "mən"i nəzərdə tutur. Sahib Əliyev bu barədə əvvəlki kitablarının birində gedən "O sevgi ki, eyləyirəm car " şeirində də üzünü gənclərə tutub demişdir:

**...O sevgi ki, onu eyləyirəm car,**
**Sənindi, onundu, sizindi yalnız.**

**Siz sevin, sevilin, siz deyin, gülün,**
**Harda məhəbbət var, mən də coşuram.**
**Sizing sevginizdən yazanda, bilin,**
**İçimdə yüz illik cavanlaşıram.**

Kitabın beşinci bölməsini satirik şeirlər təşkil edir. Həmin şeirlər sübut edir ki, lirik şair olan Sahib Əliyev satira yazmağı da yaxşı bacarır. Bu cür şeirlərində o, həyatda həmişə pis niyyətlərlə yaşayan, yaxşı insanların ayağına dolaşan tör-töküntüləri güclü satira dililə tənqid edir.

**Kitabın altıncı və yeddinci bölmələrində gedən şeirlər haqqında da yüksək fikirlər demək olar. İstər bu, istərsə də yuxarıda danışdığımız bölmələrdə gedən şeirlər göstərir ki, Sahib Əliyev yaradıcılıq yollarında yenə də mətin addımlarla irəliləyir, gündən-günə inkişaf edir, inkişaf etdikcə də sənətə daha məsuliyyətlə yanaşır. Ən əsası isə, sözdən ustalıqla istifadə edir. O, sözü asta deyir, amma tutarlı deyir, atalar sözlərindən və xalq ifadələrindən səmərəli istifadə edir. Bununla da şeiri daha canlı edir, dediyi fikri oxucunun beynində saxlamağı bacarır, şeirdə artıq sözə, yerinə düşməyən ifadələrə yol vermir, çalışır ki, dediyi fikir konkret və tutarlı çıxsın. Bu da oxucunun ürəyindən olur və ən əsası, onu yormur. Bütün bunlar da şairi öz oxucularına sevdirə bilir.**


**Əli Zalov,**
**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Analtik və Üzvi Kimya kafedrasının müdiri, kimya elmləri doktoru**



Ədalət.- 2020.- 16 yanvar. S. 8.